# RÜBLÜK İCMAL

*“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”*




## İCMAL

DÖVLƏT PROQRAMI MƏZUNLARININ UĞURLARI

TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR

MÜKAFATLAR

## RÜBLÜK İCMALIN MƏQSƏDİ

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təqaüdçüləri təhsil aldıqları ali məktəblərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar. 2014-cü ildən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə çatdırılması üçün yeni "Rüblük İcmal” layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: **http://xaricdetehsil.edu.gov.az/cdphaqqinda/rblkicml/**

# YENİ TƏYİNAT

RÜBLÜK İCMAL



## MƏTİN KƏRİMLİ

Dövlət Proqramı çərçivəsində ABŞ-ın Harvard Universitetinin "İdarəetmə" ixtisası üzrə magistratura təhsil səviyyəsindən məzun olmuş Mətin Kərimli Beynəlxalq Əmək Təşkilatının (BƏT) Sakit Okean hövzəsi ölkələri üzrə Ofisinin Direktoru vəzifəsinə təyin olunmuşdur. Qeyd edək ki, eyni zamanda M.Kərimli Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini vəzifəsində çalışır. Yeni təyinat münasibətilə məzunu təbrik edir və ona gələcək fəaliyyətində uğurlar arzu edirik!







# MƏZUNLARIN UĞURLARI

*Rüblük icmal*
*Oktyabr- Dekabr 2019*

Dövlət Proqramı çərçivəsində Kanadanın "University of British Columbia" ali təhsil müəssisəsində "Kompüter elmləri" sahəsi üzrə bakalavriat səviyyəsində təhsil alan Məmmədli Rəhim Şimal-Qərbi Sakit okean regionu üzrə keçirilən proqramlaşdırma yarışında Stanford, Kaliforniya Berkli, Vaşinqton kimi nüfuzlu universitetlərindən olan bir çox həmyaşıdlarına qalib gələrək öz istedad və bacarığını göstərə bilmişdir. R.Məmmədlinin üzvü olduğu UBC komandası yarışmada 2-ci yerin qalibi olmuşdur (https://muallim.edu.az/news.php?id=8781).

# “Study UK Alumni Awards 2019”un qalibləri

Britaniya Şurası (British Council) və Böyük Britaniyanın Azərbaycandakı səfirliyi “Study UK Alumni Awards 2019”un cari il qaliblərini elan edib. Bu il təltif olunan 4 qalibdən 3-ü Dövlət Proqramı çərvisəsində təhsil almış şəxslər olmuşdur:

Peşəkar nailiyyət üzrə-Tural Qulu

Sosial təsir mükafatı üzrə- Zümrüd Cəlilova

Səfir mükafatı- Fuad Novruzov.








- **225Ac-PSMA-617 treatment and follow up in advanced stage metastatic castration resistant prostate cancer: First clinical experience from Azerbaijan**
  *F. Novruzov, J. Aliyev, F. Guliyev, B. Abbasov, L. Mehmetbeyli, E.Mehdi;*

- **Should we insist on 18F-fluoride PET/CT for breast cancer patients? Review of experience and incidental fndings**
  *E. Mehdi, F. Novruzov, J. Aliyev, L. Mehmetbeyli, S. Vatankha;*

- **First Clinical Experience using 177Lu-Zoledronate for the Treatment of Skeletal Metastases in Breast Cancer: 68GaNODAGA-ZOL PET-CT imaging for patients eligibility and follow-up**
  *F. Novruzov, J. Aliyev, S. Rahimzade, R. Shukurov, J. Šimeček, L. Mehmetbeyli, Z. Allahverdiyeva, E. Mehdi;*

- **New approach to production and quality control of 16α-[18F] fluoroestradiol ([18F] FES: The effective functional molecular imaging probe for positive estrogen receptors breast cancer**
  *Z. Dadashov, R. Shukurov, M. Valiyev, K. Eryilmaz, M. Balashov, F. Novruzov;*

- **Application of production and quality control procedures of 18F-PSMA-1007: dominant in diagnosis of prostate cancer, through Synthera V2**
  *R. Shukurov, M. Balashov, Z. Dadashov, M. Valiyev, E. Mehdi, F. Novruzov;*

- **Simultaneous production 18F-FDG and other 18F based ($^{18}$F-NaF, $^{18}$F-FES, $^{18}$F-PSMA-1007, $^{18}$F-FET) radiopharmaceutical drug by a single run of medical cyclotron**
  *Z. Dadashov, M. Valiyev, R. Shukurov, M. Balashov, F. Novruzov;*








## Fuad Novruzovun Avropa Nüvə Təbabəti Assosiasiyasının illik konqresində çıxışı

Cari ilin oktyabr ayında Dövlət Proqramı çərçivəsində Türkiyənin Marmara Universitetində rezidentura təhsili almış Fuad Novruzov İspaniyanın Barselona şəhərində Avropa Nüvə Təbabəti Assosiasiyasının illik konqresində dəvətli məruzəçi olaraq iştirak etmişdir. F.Novruzov qeyd etmişdir ki, bu il əvvəlki illərdən fərqli olaraq çalışdığı Milli Onkologiya Mərkəzindən 6 elmi məqalə (1-sözlü məruzə, 5-poster şəklində) qəbul edilmişdir (https://eanm19.eanm.org/abstract-book/). Qeydolunan məqalələr Onkoloji Diaqnostika və Müalicə sahəsində dünyanın ən qabaqcıl elmi jurnalında (European Journal of Nuclear Medicine and Molecular Imaging) dərc olunmuşdur.

# MƏZUNLARIN UĞURLARI





# AMİL HÜSEYNOV

Dövlət Proqramı çərçivəsində Türkiyənin Akdeniz Universitetində "Ümumi cərrahiyyə" sahəsi üzrə rezidentura təhsili alan Amil Hüseynov ABŞ-ın Buffalo xəstəxanasında Robotik Cərrahiyyə üzrə tədqiqat aparıb. Cari ilin dekabr ayında Türkiyənin ən ali cərrahi qurumu olan Türkiyə Cərrahi Dərnəyinin Assistant Komissiyasına sədr olaraq seçilib. Qeyd edək ki, o, Azərbaycanda Ümumi Cərrahiyyə Assistantı olaraq Robotik Sertifikat alan ilk şəxsdir.

**Dövlət Proqramı çərçivəsində İsveçin "Karolinska İnstitute" ali təhsil müəssisəndə "Oftalmologiya" sahəsi üzrə doktorantura təhsili almış Məmmədzadə Pərviz 2019-cu ilin oktyabr ayında İsveç Krallığında oftalmologiya üzrə keçirilən konfransda Azərbaycan bayrağı altında "Salaxo" rəqsinin isveçli ali həkimləri ilə birgə nümayiş etdirmişdir.**












**Dövlət Proqramı çərçivəsində B.Britaniyanın "City University of London" Universitetindən "Biznes hüququ" ixtisasından məzun olmuş Sabir Məmmədov 2019-cu il 18 oktyabr tarixində Londonda 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqillik günü münasibətilə tədbir təşkil etmişdir. Bir çox millətlərin də iştirak etdiyi tədbirdə Azərbaycan haqqında qısametrajlı film sərgilənmişdir.**

# THE ATD CERTIFICATION INSTITUTE

Hereby Announces That

# Mehman Heydarov

Has Earned The Credential

## Certified Professional in Learning and Performance®

By Successfully Meeting CPLP® Certification Standards and Requirements
Through the demonstrated understanding and application of relevant
Talent Development competencies as defined by the ATD Certification Institute

CPLP®
CERTIFIED PROFESSIONAL IN LEARNING & PERFORMANCE
atd CERTIFICATION INSTITUTE

Tony Bingham
President

October 15, 2019
Signature Date

October 1, 2019 – September 30, 2022
Period of Certification

October 1, 2019
Certified Since



**Dövlət Proqramı çərçivəsində Böyük Britaniyanın "University of Newcastle" ali təhsil müəssisəsində "İnsan resurslarının idarəolunması" sahəsi üzrə magistratura səviyyəsində təhsil almış Heydərov Mehman dünyada İR üzrə ən yüksək 2 kvalifikasiyanı (Britaniyadan CIPD, Amerikadan ATD) qazanmışdır.**




# “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”

**OKTYABR-DEKABR 2019**

## RÜBLÜK İCMAL

*Hörmətli Dövlət Proqramı təqaüdçüləri, Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*

**Nərmin Bağırova**
**(narmin.baghirova@edu.gov.az)**

**Aysel Kərimli**
**(aysel.karimli@edu.gov.az)**

Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network

Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycanlı gənclər qrupu